# Azərbaycan Respublikası
# Qobustan rayonu İcra hakimiyyətinin başçısının
# SƏRƏNCAMI

**№009** **18 yanvar 2022-ci il**

**Qobustan rayonunda mülki müdafiə idarəetmə orqanlarının, ərazi mülki müdafiə qüvvələri və mülki müdafiə xidmətlərinin yaradılması haqqında**

"Mülki müdafiə haqqında" Azərbaycan Respublikasının Qanunu və "Mülki Müdafiənin təmin edilməsi barədə" Nazirlər Kabinetinin 25.09.1998-ci il tarixli 193 saylı qərarının, "Azərbaycan Respublikasının Mülki Müdafiəsi haqqında Əsasnamə"nin və mülki müdafiə sahəsində digər qanun və qərarların tələblərinin yerinə yetirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Yerli İcra Hakimiyyətləri haqqında Əsasnamə"nin 3.15.7, 3.15.12,4.15.7 və 4.15.14-cü bəndlərini əsas götürərək qərara alıram:

1**.** rayon mülki müdafiə idaretmə orqanları aşağıdakı tərkibdə yenidən yaradılsın:

1.1. dinc və müharibə dövrlərinin fövqəladə vəziyyətlərində əhalinin, ərazinin və maddi sərvətlərin mühafizəsi, qəza zonalarında xilasetmə və digər təxirəsalınmaz işlərin yerinə yetirilməsinin təşkili vəzifə borcumun tərkib hissəsi olduğunu nəzərə alaraq Mülki müdafiə üzrə rəhbərliyi öz üzərimdə saxlayıram;

1.2. rayon ərazisində mülki müdafiə tədbirlərinin planlaşdırılması və həyata keçirilməsi, təbii fəlakət və ya fövqəladə hadisə baş verdikdə əhalinin təhlükəsizliyinin təmin olunmasının təşkili işlərinin həyata keçirilməsi məqsədi ilə mülki müdafiə qərargahı yaradılsın:

Mülki müdafiə qərargah rəisi: Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin aparıcı məsləhətçisi Əkbərov Rasim Rafiq oğlu

Mulki müdafiə qərargah rəisinin müavini: İnformasiya təminatı və təhlili sektorunun aparıcı məsləhətçisi Vəlixanov Rüfət Vəlixan oğlu

Mülki müdafiə qərargahının üzvləri : Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin məsləhətçisi Əhmədli Həsən Məmməd oğlu, Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin məsləhətçisi Güləliyev Saatxan Ağazaman oğlu

2. rayon ərazisində dinc və müharibə dövrlərində yaranmış fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılması, əhalinin və ərazinin təhlükəsizliyinin təmin edilməsi, mülki müdafiənin xüsusi tədbirlərinin (mühəndis, texniki, tibbi, rabitə və xəbərdarlıq) yerinə yetirilməsi, xilasetmə və digər təxirəsalınmaz işlərin aparılmasını təmin etmək məqsədi ilə mülkiyyət formasından asılı olmayaraq rayon ərazisində fəaliyyət göstərən obyektlərin bazasında aşağıdakı tərkibdə mülki müdafiə xidmətləri və mülki müdafiə qüvvələri yaradılsın:

2.1. rabitə və xəbərdarlıq xidməti - 1/9 nəfərdən ibarət Qobustan rayon Telekommunikasiya Qovşağının bazasında rabitə qrupu, xidmətin rəisi - Qobustan rayon Telekommunikasiya Qovşağının rəisi: Bəhruz Aslanov

2.2. 1/23 nəfərdən ibarət İctimai asayişin mühafizəsi xidməti - xidmətin rəisi Qobustan rayon Polis şöbəsinin rəisi, polis polkovniki: Etibar Babayev 1/15 nəfərdən ibarət Qobustan rayon Polis

şöbəsinin bazasında ictimai asayişi mühafizə qrupu, 1/8 nəfərdən ibarət Qobustan rayon DYP şöbəsinin bazasında Yol patrul qrupu;

2.3 Mühəndis xidməti - 1/16 nəfərdən ibarət rayon Kommunal Müəssisəslər Kombinatının bazasında Kollektiv mühafizə qurğularına xidmət manqası, xidmətin rəisi- Qobustan rayon ommunal müəssisəslər kombinatının rəisi: Muxtat Kuryayev

2.4. Yanğından mühafizə xidməti - 1/25 nəfərdən ibarət Qobustan rayon Dövlət Yanğından Mühafizə Hissəsinin bazasında yanğınsöndürmə komandası, xidmətin rəisi - Qobustan rayon Dövlət Yanğından Mühafizə Hissəsinin rəisi: Rəfail Rəcəbov

2.5. Elektirik qəza xidməti - 1/15 nəfərdən ibarət Qobustan rayon Elektrik Şəbəkəsi bazasında elektrik qəza-bərpa qrupu, xidmətin rəisi - rayon Elektrik Şəbəkəsinin müdiri: Mahir Məmmədov

2.6. Qaz qəza xidməti - 1/15 nəfərdən ibarət Ağsu Regional Qaz İstismar İdarəsinin Qobustan xidmət sahəsi bazasında qaz qəza-bərpa qrupu, xidmətin rəisi- Ağsu Regional Qaz İstismar İdarəsinin Qobustan xidmət sahəsinin rəisi: Kamran Babaşov

2.7. Su kanalizasiya qəza xidməti - 1/15 nəfərdən ibarət Qobustan Rayon Sukanal Sahəsinin bazasında Su kanalizasiya xətlərinin qəza-bərpa qrupu, xidmətin rəisi Qobustan Rayon Sukanal Sahəsinin müdiri: Bəhmən Mehdiyev

2.8. 1/50 nəfərdən ibarət tibb xidməti - rayon Mərkəzi Xəstəxanasının bazasında, xidmətin rəisi – Qobustan rayon Mərkəzi Xəstəxanasının baş həkimi: Emin Hüseyn

1/20 nəfər ilkin həkim yardım dəstəsi, Qobustan rayon Mərkəzi Xəstəxanası” publik hüquqi şəxsin bazasında;

1/15 nəfər ixtisaslaşdırılmış təcili yardım briqadası, Qobustan təcili tibbi yardım şöbəsinin bazasında;

1/15 nəfər Epidemiya əleyhinə səyyar dəstə - Qobustan rayon Gigiyena Epidemiologiya Mərkəzinin bazasında.

2.9. yol-körpü təmiri qrupu - 1/17 nəfərdən ibarət Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin 7 saylı Yol İstismarı” MMC-nin bazasında Yol-körpü təmiri qrupu -, xidmətin rəisi - 7 saylı Yol İstismarı” MMC-nin rəisi: Məzahir Əliyev

2.10. 1/16 nəfərdən ibarət ərazi kəşfiyyat dəstəsi - xidmət rəisi - Qobustan rayon Zona təcrübə stansiyasının rəisi: Atabəy Cahangirov 1/4 nəfərdən ibarət Qobustan rayon Zona təcrübə stansiyasının bazasında Radiasiya və kimyəvi kəşfiyyat qrupu, 1/12 nəfərdən ibarət Qobustan rayon Kommunal Müəssisələr kombinatının bazasında Mühəndis kəşfiyyat qrupu;

2.11. Ərazi xilasetmə dəstəsi - 1/32 nəfərdən ibarət Qobustan rayon Sukanal İdarəsi bazasında, xidmət rəsi - Qobustan rayon Sukanal İdarəsi rəisi:Bəhmən Mehdiyev

2.12. 1/8 nəfərdən ibarət Kənd Təsərüffatı heyvanlarının və bitkilərin mühafizəsi dəstəsi - Xidmət rəisi Qobustan rayon Kənd Təsərrüfatı İdarəsinin rəisi: Həsənağa Hüseynov 1/3 nəfərdən ibarət Qobustan rayon Gigiyena və Epidemologiya Mərkəzinin bazasında Bitkilərin mühafizəsi qrupu, 1/5 nəfərdən ibarət Qobustan rayon Baytarlıq idarəsinin bazasında Heyvanların mühafizəsi qrupu.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 28 iyul 1993-cü il 409 nömrəli “Fövqəladə halların qarşısının alınması və belə hallarda fəaliyyət üzrə Azərbaycan Dövlət Sisteminin Müşahidə və Laboratoriya Nəzarəti Şəbəkəsi haqqında” qərarının tələblərini əsas tutaraq gündəlik fəaliyyətdə, dinc və müharibə dövründə yaranan fövqəladə hallarda Qobustan rayonunda insanların, heyvanların, bitkilərin yoluxucu xəstəliklərə tutulmasını, ərazinin radioaktiv maddələrlə çirklənməsini planlı sürətdə müşahidə və laboratoriya nəzarəti aparmaq, həmçinin atmosferin, suyun, açıq su hövzələrinin, torpağın, yeyinti məhsullarının əhali, heyvanlar və bitkilər üçün zərərli və ya zəhərli maddələrlə yol verilə bilən həddən artıq dərəcədə çirklənməsini aşkar etmək

məqsədilə Qobusta rayonu Gigiyena və Epidemiologiya mərkəzində 11 nəfərdən ibarət Müşahidə və Laboratoriya Nəzarəti Şəbəkəsinə daxil olan obyekt laboratoriyası yaradılsın.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetin 06 avqust 1993-cü il tarixli 438 saylı qərarı ilə təsdiq edilmiş «Sülh və müharibə dövrlərində fövqəladə hallarda Azərbaycan Respublikasında əhalinin köçürülməsi haqqında» Əsasnaməyə əsasən, yaranmış vəziyyətlə əlaqədar olaraq, rayon əhalisini qeydiyyata almaqla və bütün köçürmə üsullarından (avtomobil, hava və dəmir yolu nəqliyyatından, piyada) istifadə etməklə qısa vaxt ərzində təhlükəli zonadan planlı surətdə köçürülməsi məqsədilə, toplanış-köçürmə (qəbuletmə) məntəqələri yaradılsın. Fövqəladə hallar komissiyasının sədri, toplanış-köçürmə məntəqə rəisləri tərəfindən bütün sənədlərin tam həcmdə hazırlanmasını və köçürmə tədbirlərini həyata keçirərkən bütün əhalinin qeydiyyatı üzrə təhkim olunduqları toplanış-köçürmə məntəqələrinə toplanılmasını təmin etmək məqsədilə, onların sayının ildə iki dəfədən az olmayaraq dəqiqləşdirilməsini və əhalinin köçürülməsi ilə əlaqədar verilən sərəncam və göstərişlərin yerinə yetirilməsinə hazır olmalarını təmin etsin.

5. Mülki Müdafiə siqnalları üzrə rayon Mülki Müdafiə rəhbərliyinin, rayon fövqəladə hallar komissiyası sədrinin, mülki müdafiə xidmətləri rəislərinin, fövqəladə hallar komissiyası üzvlərinin, o cümlədən iri müəssisə rəhbərlərinin xəbərdarlığı xəbərdarlıq sxeminə uyğun olaraq, rabitə və xəbərdarlıq xidməti tərəfindən təmin edilsin.

6. Yaradılmış xidmətlərin və ərazi qüvvələrinin ştat strukturu və funksional vəzifələri işlənilsin, Şima-qərb Regional Mərkəzi ilə razılaşdırmaqla təsdiq üçün mənə təqdim olunsun.

7. Sərəncamın surəti aidiyyatı üzrə MM xidmətlərinə və məsul şəxslərə çatdırılsın.

8.Sərəncamın icrasına nəzarət rayon İcra Hakimiyyəti Başçısının müavini- rayon Fövqəladə Hallar Komissiyasının sədrinə həvalə edilsin.

**Qobustan rayonu İcra**
**hakimiyyətinin başçısı: A.M.Məmmədov**